**Zeynallı N.Y.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.105-110**
**UOT: 340**

# Tibb işçiləri və həkimlərin hüquqi statusu

**Xülasə:** Daim inkişaf edən cəmiyyətdə yeni hüquq sahələrinin yaranması və müstəqilləşməsi nəticəsində həmin hüquq sahələrinin araşdırılması və özünəməxsus xüsusiyyətlərinin aydınlaşdırılması məsələsi ortaya çıxır. Hər bir hüquq sahəsində olduğu kimi tibb hüququnda da mövcud münasibətlər hüquq normaları ilə tənzimlənir və bu münasibətlərin iştirakçılarının hüquq və vəzifələrinin dəqiqləşdirilməsinin həmin hüquq sahəsində xüsusi rolu vardır. Tibb hüququnun əsas iştirakçısı kimi də məhz tibb işçiləri və həkimlərin hüquqi statusunun araşdırılması əhəmiyyət kəsb edir.

Bu məqalədə də tibb hüququnun predmeti, tibb münasibətlərinin məzmunu, yəni tibb işçiləri və həkimlərin hüquq və vəzifələri araşdırılacaq.

**Açar sözlər:** tibb hüququ; tibb işçiləri; hüquqi status; həkim; cinayət məsuliyyəti.

Hüquq sistemi özündə bir sıra elementləri birləşdirir ki, bunlardan ən əhəmiyyətlisi də hüquq sahəsidir. Hüquq sahəsi dedikdə, oxşar hüquq münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Lakin hüquq sahəsinin müstəqil bir sahə kimi mövcud olması və təkmilləşməsi üçün bir sıra xarakterik cəhətlərə malik olmalıdır. Bunlara həmin hüquq sahəsinin özünəməxsus predmeti, metodu və prinsiplərinin mövcud olması daxildir. Predmet hüquq sahəsinin tənzim etdiyi ictimai münasibətlərin məcmusu, metod isə həmin münasibətlərin tənzim edilmə üsul və vasitələri deməkdir. Bir sözlə, predmet "nəyi tənzimləyir?" sualına cavab verirsə, metod "necə tənzimləyir?" sualını cavablandırır. Digər bir element isə prinsiplərin, yəni rəhbər müddəa və başlanğıcların mövcud olması faktorudur. Bu elementlərin mövcud olması müstəqil hüquq sahəsinin yaranmasında əsas zəmin rolunu oynayır.

Tibb hüququ da yeni yaranan hüquq sahəsi kimi yuxarıda qeyd olunan elementlərə sahibdir. Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutu tərəfindən hazırlanmış ədəbiyyatda tibb hüququnun predmeti "həm təbii fəaliyyətin həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlərin, həm də geniş anlamda vətəndaşların sağlamlığının qorunması və bu hüququn həyata keçirilməsi prosesi ilə sıx surətdə bağlı olan tibbi və digər fəaliyyətlə əlaqədar yaranan ictimai münasibətlərin məcmusu" kimi qeyd olunmuşdur [7, s. 8].

Bununla yanaşı, hüquq münasibətinin tərkibinin aydınlaşdırılması xüsusilə vacibdir. Hüquq münasibətinin tərkibi dedikdə aşağıda qeyd olunanlar nəzərdə tutulur: hüquq subyekti; hüquq münasibətlərinin məzmunu; hüquq münasibətlərinin obyekti.

Tibb hüququnun subyektləri qismində "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli 360 Nömrəli Qanununda qeyd olunduğu kimi Azərbaycan Respublikasında ali və ya orta ixtisas tibb müəssisələrində təhsil almış şəxslər, müvafiq

---

♦ **Zeynallı Nihat Yusasif oğlu** - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasının Tibbi hüquq ixtisası üzrə magistrantı (Azərbaycan). E-mail: zeynallinihat101@gmail.com

diploma, yaxud xüsusi rütbəyə malik olan mütəxəssislər qanunvericiliklə müəyyən edilmiş qaydada tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər [2, m. 46].

Hüquq münasibətlərinin məzmunu dedikdə isə həmin hüquq sahəsindəki subyektlərin hüquq və vəzifələrin məcmusu başa düşülür. Tibb hüququ münasibətlərinin məzmununa isə tibb işçilərinin, eləcə də həkimlərin hüquqi statusu, yəni hüquq və vəzifələri daxildir. “Üçayaqlı” təməl üzərində qurulan tibb hüququ vəzifə, hüquq və məsuliyyəti özündə birləşdirir [6, s. 138; 8, s.73]. Bunu nəzərə alaraq, tibb işçiləri və həkimlərin həm beynəlxalq, həm də yerli qanunvericilikdə hansı hüquq, vəzifə və məsuliyyət daşıdıqlarını aşağıdakı kimi təhlil edə bilərik.

Beynəlxalq səviyyədə həkimlərin tibbi müdaxilə zamanı vəzifələri aşağıdakı kimi qeyd olunur: xəstənin sağlamlığı haqqında dəqiq və ətraflı məlumatın verilməsi, xəstəliyin aradan qaldırılması üçün bütün mümkün müalicə üsulları barədə xəstəyə ətraflı məlumatın verilməsi, eləcə də yalnız xəstənin icazəsi ilə xəstənin bədəninə hər hansı bir müdaxilənin edilməsi [6, s. 141].

Belə ki, Cenevrə Bəyannaməsində qeyd olunduğu kimi “xəstəmin sağlamlığı mənim üçün öncəlikdir” prinsipi həkimlər və digər tibb işçiləri üçün rəhbər prinsip rolunda çıxış etməlidir. Bununla yanaşı, Beynəlxalq Tibbi Etika Məcəlləsində də buna bənzər başqa bir müddəaya rast gəlmək olar: “Hər bir həkim öz xəstəsinə qarşı tam dürüst bir şəkildə və bütün mümkün elmi vasitələrdən istifadə etməyə borcludur”.

Hər bir hüquq sahəsinin tənzimlənməsi üçün yerli qanunvericilik səviyyəsində də normativ hüquqi aktların mövcudluğu əsas şərtlərdən biridir. Azərbaycan qanunvericiliyində müvafiq sahənin tənzimlənməsində aşağıdakı normativ hüquqi aktları xüsusilə qeyd etmək lazımdır: “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu; “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanunu; “Qan və onun komponentlərinin donorluğu haqqında” Azərbaycan Respublikasının Qanunu; “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu; “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu və s.

Tibb işçilərinin əsas hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası və Əmək Məcəlləsi ilə tənzimlənir [7, s. 92]. Konstitusiyanın 35-ci maddəsinə əsasən, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqaviləsi sərbəst bağlanır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz [1, m.35].

Əmək Məcəlləsinin 9 və 10-cu maddələrində isə işçilərin əsas hüquqları və vəzifələri qeyd edilmişdir. Əsas hüquqlara sərbəst surətdə ixtisasına, sənətinə, peşəsinə uyğun əmək fəaliyyəti növü və iş yeri seçərək əmək müqaviləsi bağlamaq; əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək; iş vaxtında və ya iş vaxtından sonra qazanc əldə etmək məqsədi ilə qanunvericiliklə qadağan edilməyən, habelə əmək müqaviləsi üzrə tərəflərin öhdəliklərinə xələl gətirməyən fəaliyyətlə məşğul olmaq; həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq, habelə belə şəraitin yaradılmasını tələb etmək; qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əmək haqqı almaq; iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək; əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasına daxil olmayan işləri, xidmətləri yerinə yetirməkdən imtina etmək, belə işləri, xidmətləri icra etdikdə isə müvafiq əlavə əmək haqqının verilməsini tələb etmək; mənzil şəraitinin, ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün işəgötürəndən müvafiq sosial yardımlar almaq; qanunvericiliklə müəyyən olunmuş iş vaxtında çalışmaq və s. daxildir [4, m. 9].

Əsas vəzifələrə isə əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək; əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək; əməyin təhlükəsizliyi normalarına əməl etmək; işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq; dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq; iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq; fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını (qətnamələrini) yerinə yetirmək; əmək qanunvericiliyinin tələblərinə əməl etmək daxildir [4, m.10].

Bununla yanaşı, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 19 iyun 2017-ci il tarixli 8 nömrəli əmri ilə təsdiq edilmiş “Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif- İxtisas Sorğu Kitabçası”nın təsdiq edilməsi barədə” Qərarı tibb işçilərinin hüquqi statusu məsələsində önəmli rol oynayır. Belə ki, bu qərarın əsas rolu tibb işçiləri kateqoriyasına məhz kimlərin daxil olduğunu aydınlaşdırmasıdır. Həmin qərara səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin siyahısına tibb müəssisəsinin baş həkimi, təchizat üzrə baş mütəxəssis, aptek müəssisənin müdiri, baş tibb bacısı, aptek məntəqəsinin müdiri, həkim-mütəxəssis, həkim, klinik psixoloq və digərləri, eləcə də hər bir peşə sahibinin hüquq və vəzifələri daxil edilmişdir [5].

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli 360 nömrəli Qanununda qeyd olunduğu kimi Azərbaycan Respublikasının ali tibb təhsili müəssisələrini bitirmiş və həkim diplomu almış şəxslər “Hippokrat andı” içirlər. Həkim andını pozan həkimlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar [2]. Vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir. Vətəndaşın və ya onun qanuni nümayəndəsinin razılığı ilə həkim sirrini təşkil edən məlumat pasiyentin müayinə və müalicəsinin mənafeyi naminə, elmi tədqiqatların aparılması, elmi ədəbiyyatda nəşr edilməsi, tədris və digər məqsədlərlə istifadə olunması üçün başqa vətəndaşlara, vəzifəli şəxslərə verilə bilər. Tibb və əczaçılıq işçilərinin: əməyin mühafizəsi tələblərinə uyğun olaraq onların fəaliyyəti üçün iş şəraitinin təmin edilməsi; əmək müqaviləsi üzrə fəaliyyət göstərmək; şərəf və ləyaqətinin qorunması; nəzəri və praktik hazırlıq səviyyəsinə uyğun ixtisas kateqoriyasına yiyələnmək; peşə biliklərini təkmilləşdirmək hüquqları vardır [2, m. 55].

Yuxarıda qeyd olunanlara müvafiq olaraq, tibb işçilərinin öz vəzifələrini yerinə yetirmədiyi təqdirdə qanunvericilik səviyyəsində məsuliyyətə cəlb olunması məsələsi də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli 360 nömrəli Qanununda hüquqa zidd hərəkətlər nəticəsində zərər çəkmiş vətəndaşlara göstərilən tibbi yardımın xərcləri təqsirkar idarə, müəssisə və təşkilatlar tərəfindən xərc çəkən dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin müəssisələrinə ödənilir. Vətəndaşların sağlamlığına birlikdə ziyan vuran şəxslər qanunla müəyyən edilmiş qaydada ziyanın ödənilməsi ilə əlaqədar birgə məsuliyyət daşıyırlar [2, m. 58]. Tibb və əczaçılıq işçiləri öz peşə vəzifələrini lazımi səviyyədə yerinə yetirmədikdə, sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması hallarında qanuna uyğun olaraq məsuliyyət daşıyırlar [2, m. 59].

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinə əsasən isə qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzürlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi nəticəsində onun sağlamlığına az ağır zərər vurma - üç yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə müəyyən vəzifə tutma

və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [3, m.142].

Beləliklə, tibb işçiləri və həkimlərin həm beynəlxalq, həm də yerli qanunvericilik səviyyəsindəki hüquq və vəzifələrini, eləcə də məsuliyyət məsələsini təhlil etdikdən sonra bu məsələnin tibb hüququndakı ən diqqətəlayiq məsələlərdən biri olduğu və məhz bu səbəbdən də qanunvericilikdə xüsusi olaraq tənzimləndiyi nəticəsinə gələ bilərik.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897

2. Azərbaycan Respublikasının "Əhalinin sağlamlığının qorunması haqqında" 26 iyun 1997-ci il tarixli 360 nömrəli Qanunu [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4078

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947

4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46943

5. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 19 iyun 2017-ci il tarixli 8 nömrəli əmri ilə təsdiq edilmiş "Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə" Qərarı [Elektron resurs]. URL: https://e-qanun.az/framework/35977

6. Dunay Xasaylı. Tibb hüququ: Düzgün tibbi müdaxilə, malpraktis və komplikasion hüquqi fakt qismində // Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı. Buraxılış 2. Say 1. Dekabr 2015.

7. Mustafazadə A., Aslanov Z. Tibb hüququ. Dərs vəsaiti. Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutu. – Bakı, 2017. - 204 s.

8. Tülay Yıldız Akar. Hastane enfeksionlarının hukuki yansımaları. (2005).

**Zeynalli N.Y.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.105-110**
**UDC: 340**

## Legal status of medical employees and physicians

**Abstract:** In a progressive society, as a result of the creation and improvement of the new areas of law, it becomes essential to investigate and clarify the specific features of those areas.

Like other law branches, the social relationships relating to the medical law are also governed by the legal norms, and it is necessary to know the rights and duties of the participants of those

♦ **Zeynalli Nihat Yusasif oglu** – Master's student of the Department of Human Rights and Information Law UNESCO of the Faculty of Law of the Baku State University in the specialty Medical Law (Azerbaijan). E-mail: zeynallinihat101@gmail.com

relationships. As a main part of medical law, the legal status of the medical employees and physicians plays important role.

In this article, the core idea, content of medical law, meaning the duties and rights of medical employees and physicians will be discussed.

**Keywords:** medical law; medical employees; legal status; physician; criminal liability.

## References

1. Constitution of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/897 (in Azerbaijani).

2. Law of the Republic of Azerbaijan "On Protection of Population Health" No. 360 dated 26.06.1997 Available at: https://e-qanun.az/framework/4078 (in Azerbaijani).

3. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46947 (in Azerbaijani).

4. Labor Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46943 (in Azerbaijani).

5. Resolution of the Board of the Ministry of Labor and Social Protection of the Republic of Azerbaijan dated June 19, 2017 No. 8 “On the approval of the Unified Tariff-Specialization Questionnaire Booklet for servant positions and labor professions related to health care”. Available at: https://e-qanun.az/framework/35977 (in Azerbaijani).

6. Dunay Hasaylı. Medical law: Correct medical intervention, malpractice and complication as a legal fact // Baku State University Student Law Journal. Issue 2. No. 1. December 2015 (in Azerbaijani).

7. Mustafazade A., Aslanov Z. Medical law. Textbook. Azerbaijan National Academy of Sciences Institute of Law and Human Rights. Baku, 2017, 204 p. (in Azerbaijani).

8. Tülay Yıldız Akar. Hastane enfeksionlarının hukuki yansımaları. (2005). (in Turkish).

**Зейналлы Н.Ю.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.105-110**
**УДК: 340**

## Правовой статус медицинских работников и врачей

**Аннотация:** В результате возникновения и самостоятельности новых правовых полей в постоянно развивающемся обществе возникает вопрос исследования и выяснения их уникальных особенностей. Как и в любой отрасли права, существующие отношения в медицинском праве регулируются правовыми нормами, и определение прав и обязанностей участников этих отношений имеет существенное значение в этой области права. Важно рассмотре-

♦ **Зейналлы Нихат Юсасиф оглы** – магистрант медицинского права кафедры прав человека и информационного права ЮНЕСКО юридического факультета, Бакинский государственный университет (Азербайджан). E-mail: zeynallinihat101@gmail.com

ние правового статуса медицинских работников и врачей как основных участников медицинского права.

Рассматривается предмет медицинского права содержание медицинских отношений, то есть права и обязанности медицинских работников и врачей.

**Ключевые слова:** медицинское право; медицинские работники; правовой статус; врач; уголовная ответственность.

## Библиография

1. Конституция Азербайджанской Республики [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/897 (на азерб. яз.).

2. Закон Азербайджанской Республики «Об охране здоровья населения» № 360 от 26.06.1997 г. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/4078 (на азерб. яз.).

3. Уголовный кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46947 (на азерб. яз.).

4. Трудовой кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46943 (на азерб. яз.).

5. Постановление Коллегии Министерства труда и социальной защиты Азербайджанской Республики от 19 июня 2017 года № 8 «Об утверждении Единого опросного листа по тарифам и специализациям для должностей служащих и трудовых профессий, связанных со здравоохранением»". [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/35977 (на азерб. яз.).

6. Дунай Хасайлы. Медицинское право: правильное медицинское вмешательство, врачебная ошибка и осложнения как юридический факт // Студенческий юридический журнал Бакинского государственного университета. - 2015 Выпуск 2. - № 1. (на азерб. яз.).

7. Мустафазаде А., Асланов З. Медицинское право. Учебник. – Баку: Институт права и прав человека Национальной академии наук Азербайджана, 2017. - 204 с. (на азерб. яз.).

8. Tülay Yıldız Akar. Hastane enfeksionlarının hukuki yansımaları. (2005). (на турец. яз.).